Kredo 2019.- 27 noyabr.- S.16.

## “Kredo”nun 20 illiyinə

# 1000-ci saya doğru


ТАРИХ ИНСАНЫН ӘГИДӘ, ИНАМ УҒРУНДА МУБАРИЗӘСИДИР!

Kredo

№1 (01) 12 Октјабр 1999-чу ил

Гијмәти 1000 манат

БАШ РЕДАКТОРДАН

ӘСЛӘКӘ МУХАЛИФ ДЕЈИЛИК

ПРИНСИПЛӘРИМИЗ АЈДЫН ОЛСУН

Əli Rza Xələfli ilə tanışlığım 1995-1999-cu illərdə “Xudafərin” qəzetində çalışdığı vaxtdan başlanıb. Bu ünsiyyət 1999-cu ilin 12 oktyabr tarixindən “Kredo” qəzetinin işıq üzü gördüyü gündən bu günümüzə qədər davam edib və edir.

“Kredo” məni öz cazibə çevrəsinə salıb, varlığımı, ruhumu,duyğularımı maqnit kimi özünə çəkib. Qəzetin nüsxələrini oxuduğum da, oxumadığım da olub. Ara-sıra çıxışlar etmişəm. Nədən asılı olmayaraq bir qənaətə gəlmişəm ki, “Kredo” çoxsaylı ziyalılar ordusunun tribunasına çevrilib. Və 20 il ərzində “Kredo” ön cərgədə olan ən oxunaqlı qəzetlərdən biri kimi özünü tanıda bilib.

Əli Rza Xələflinin baş redaktorluğu ilə dərc edilən “Kredo” müdrik elm və mədəniyyət xadimlərinin, tanınmış şəxsiyyətlərin maraqlı məqalələrini, elmi əhəmiyyət kəsb edən tarixi hadisələri işıqlandırmaqla milli-mənəvi dəyərləri inkişaf etdirmək, bəşəriləşdirmək istiqamətində varlığını ortaya qoya bilib.

“Kredo” qəzetinin hər sayında ilk səhifədə baş redaktordan başlığı altında verilən yazılarda böyük alimləri, dəyərli şəxsiyyətləri, yaradıcı sənətkarları daha dərindən tanıtmaq üçün Əli Rza Xələfli qələminin gücü, kəsəri sözə can, nəfəs verir, sözü ətə-qana gətirir, “Kredo”nun üzərinə qızıl rəngli Günəş zərrələri salmaqla oxucuları bu işığa doğru səmtləşdirir, bu işığa doğru yönəldir.

Azərbaycan nəşriyyatı binasının ikinci mərtəbəsində yerləşən “Kredo” qəzeti yazılmış otağın içərisinə, yəni Əli Rza müəllimin iş otağına-“evinə” daxil olan hər kəs onun digər redaktorlardan, yazarlardan, jurnalistlərdənseçilən, fərqli olan bir cəhətinin şahidi olur. ƏliRza müəllim yazdığı məqalələri birbaşa yazdırır, diktə edir. Mənə elə gəlir ki, bu bir Allah vergisi, Tanrı pıçıltılarıdır.

Bir çox qələm sahiblərinin, tanınmış simaların, şəxslərin Əli Rza Xələfli yaradıcılığı barədə söylədiyi qiymətli fikirləri dəyərləndirməklə bu düçüncəyə gəlirəm ki, o, Həsənbəy Zərdabinin, Mirzə Cəlilin bu günkü davamçısı kimi xalqın dilini, mənəviyyatını, ictimai fikrini inkişaf etdirən qələm sahibi olaraq özünü təsdiq edib.

Əli Rza Xələflinin gərgin zəhmətinin nəticəsi olaraq işıq üzü görmüş 43 kitabının hamısı “Kredo”nun süzgəcindən keçmişdir. Dərc edilmiş bu kitablar barədə dəyərli alimlərin, dilçilərin, ədəbiyyatşünasların verdiyi yüksək qiymət Əli Rza müəllimin insanların qəlbində yuva salmış bir sənətkar, təfəkkür sahibi olduğunun təsdiqidir. Bu yaxınlarda Əli Rza Xələfli ünvanı olan “Kredo”nun 1000-ci sayı oxucuların ixtiyarına veriləcəkdir. Belə bir əlamətdar gün münasibəti ilə Əli Rza Xələflini qəzetin oxucusu, bir ziyalı kimi təbrik edib, ona möhkəm cansağlığı, uzun ömür diləyib, “Kredo”nun səs-sorağının daha geniş coğrafi məkanlardan gəlməsini arzulayıram və bir neçə misramı dilə gətirirəm.

Əli Rza Xələfli, sən, bir qaynar bulaqsan,  
Vulkan kimi püskürən, sönməz odsan-ocaqsan,  
Nə qədər ki, həyat var, sözlə ucalacaqsan,  
Ağlın Allah vergisi, sözdür Tanrıdan payın,  
Eşq olsun “Kredo” ya, bayram edir 1000 sayın!

Əziz dostum Əli Rza Xələfli, hamımıza məlumdur ki, Zəngilan təbii çinar meşəsi ilə dünyada məşhurdur. Elə sənin doğulub-böyüdüyün Cəbrayılın özündə də təbiət abidəsi kimi məşhur olan çoxəsrlik Xan çinarlar az deyildi. Yüzilliklərlə yaşı ölçülən çinarlarda mən xalqımızın qürurunu və əzəmətini görürəm. Yəqin ki, mənim çinara sevgim təbiətə sevgimdən irəli gəlir. Ancaq təbiətin əzəmət və qürur abidəsi olan çinarları da hərdən insanlara bənzədirəm. Xeyir əməlli, gördüyü işlərlə, yaratdıqları ilə yaşarılıq qazanan insanlar hardasa elə Xan çinarlara bənzəyir.



Azərbaycanın ədəbi mənəvi mühitində “Kredo” qəzeti böyük salnamədir. Şəxsən siz də bu salnamənin yaradıcısı. Arzu edirəm “Kredo” bu salnaməni Qarabağın işğaldan azad olunmasından sonra da davam etdirsin.

*Oqtay* Zəngilanlı